**Yaponiya Dövlət Təqaüd Proqramı (MEXT) haqqında**

Yaponiyada təhsillə maraqlanan şəxslərin nəzərinə

Bizə gələn çoxsaylı təhsillə əlaqəli suallar tezliklə elan olunması gözlənilən Yaponiya Dövlət Təqaüd Proqramı (MEXT) ilə bağlı olduğu üçün sizlərlə aşağıdakı məlumatı bölüşmək istərdik.

"Elmi-Tədqiqat üzrə təhsil" (magistratura, doktorantura və ya tədqiqatçı tələbə), "Bakalavr pilləsi üzrə təhsil" və "Texnologiya kolleclərində təhsil" üçün Yaponiya Dövlət Təqaüd Proqramı (MEXT) hər il aprelin sonu və ya mayın əvvəllərində elan olunur. Bu il proqramın dəqiq hansı tarixdə elan olunacağı barədə hələ ki məlumat yoxdur. Odur ki, maraqlanan şəxslərə bu məlumat üçün aprelin sonlarına doğru səfirliyin rəsmi internet səhifəsi ("Səfirliyin xəbərləri" və ya "Təhsil" bölmələri) və ya Facebook səhifələrini yoxlamaqlarını tövsiyə edirik.

Səfirliyin Rəsmi Facebook səhifəsi:
https://www.facebook.com/JapanEmb.Azerbaijan/

**Keçən ilki proqramla tanış olmaq üçün aşağıdakı linkə nəzər sala bilərsiniz:**

- "Elmi-tədqiqat aparmaq istəyən tələbələr üçün" MEXT Proqramı:
https://www.az.emb-japan.go.jp/files/000476170.pdf
- "Bakalavr təhsili üzrə MEXT Proqramı"
https://www.az.emb-japan.go.jp/files/000475427.pdf
- "Texnologiya kolleclərində təhsil üzrə MEXT Proqramı"
https://www.az.emb-japan.go.jp/files/000475785.pdf

Proqramla bağlı digər suallarınız olarsa, səfirliyimizin culture-info@bk.mofa.go.jp mail ünvanına ünvanlaya bilərsiniz.